*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 278-282*

https://doi.org/10.62837/2024.10.278

**UOT 82.91**

**SƏFƏROVA ÜLVIYYƏ SƏFƏR QIZI**
*Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci*
elnur_seferov@inbox.ru

# TEODOR DRAYZER ROMANLARINDA QADIN MÖVZUSU (“KERRİ BACI” VƏ “CENNİ HERHARDT” ROMANLARI ƏSASINDA)

**Xülasə**

XIX əsrin sonu və XX əsrin əvvəllərində Amerika ədəbiyyatının görkəmli nümayəndəsi olan Teodor Drayzer mövzu və məzmunca diqqət çəkən bir neçə romanın – “Kerri bacı”, “Cenni Herhardt”, “Dahi” və s. əsərlərin müəllifidir. Yaradıcılığının ilkin mərhələsində əsərlərinə görə tənqidlərə məruz qalan Teodor Drayzer sonralar dünya şöhrətli yazıçı kimi tanınıb. Müəllifin qadın obrazları olan Kerri bacı, Cenni Herhardt azad düşüncəsi, müstəqil qərarları ilə cəmiyyətin mövcud stereotiplərinə qarşı çıxmış, bununla da diqqəti öz üzərlərinə cəmləməyi bacarmışlar. Yazıçının müraciət etdiyi mövzular müasirlik baxımından bu gün də aktualdır və onun əsərlərinə geniş oxucu kütləsinin marağı azalmamışdır.

*Açar sözlər:Drayzer, roman, qadın mövzusu, ABŞ ədəbiyyatı, XX əsr*

Naturalizm cərəyanının ən parlaq simalarından olan Teodor Drayzer ABŞ ədəbiyyatı tarixinə misilsiz töhfə hesab oluna biləcək “Kerri bacı”, “Cenni Herhardt”, “Maliyyəçi”, “Arzular trilogiyası”, “Titan”, “Dahi”, “Amerika faciəsi”, “Dayaq” kimi dünyaca məşhur romanların müəllifidir. Dahi yazıçının bu əsərləri müəyyən maneələr, tənqidlərlə qarşılansa da öz həqiqi dəyərini almağı illər sonra bacardı. İlk iri həcmli əsəri “Kerri bacı” romanı İngiltərədə çap olunduqdan sonra Drayzerə nəinki şöhrət qazandırmadı, əksinə onu tənqidçilərin tənqid hədəfinə çevirdi. Əsəri “Amerika romançılığına kölgə salan”, “gənc oxucuları əxlaqsızlığa səsləyən” əsər kimi qiymətləndirdilər. Bu əsassız tənqidlər yazıçını gələcəkdə fəth edəcəyi ədəbiyyat zirvəsindən 10 il uzaqlaşdırdı. Lakin yeddi ildən sonra ikinci dəfə İngiltərədə təkrar nəşr olunan bu əsər böyük oxucu kütləsinin rəğbətini qazana bildi, tənqidçilərin müsbət rəyindən sonra müxtəlif Avropa dillərinə tərcümə olunaraq böyük tirajla çap olundu. Əsərin ədəbiyyat aləmində yaratdığı xoş təəssüratdan sonra Amerikada da nəşr olunmasına qərar verildi. Biri-birinin ardınca çap olunan kitablar yazıçıya dünya şöhrətli bir yazıçı kimi tanınmağa şərait yaratdı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Amerikan ədəbiyyatında cəmiyyətdə qadın və kişi hüquqlarının bərabərliyi mövzusu aktuallıq kəsb edirdi. Bir sıra əsərlərdə, dövrü mətbuatda “yeni qadın” obrazı peyda olur, bu qadın obrazı

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.278-282*

özünəqədərki həmcinslərindən özünün cəsarəti, cəmiyyətdə öz hüquq və bərabərliklərinin qorunması uğrunda apardığı mübarizə ilə seçilirdi. Eyni məzmuna və obrazların təsvirinə Teodor Drayzerin "Kerri bacı" və "Cenni Herhardt" əsərlərində də rast gəlmək mümkündür. Doğrudur, eyni adlı romanın qəhrəmanları olan bu iki obraz biri-birindən kəskin fərqlənir, lakin bu iki qadın obrazını yaxınlaşdıran bəzi məqamlar da mövcuddur. Bu məqamlar nədən ibarət idi? Bu zamana qədər mövcud cəmiyyətdə qadının rolunu, onun hüquqlarını minimuma endirən, Amerikan cəmiyyəti üçün ehkam hesab olunan bəzi məsələlər hələ də həll olunmamış qalırdı.

Qadının öz həyatı ilə bağlı şəxsi istəkləri, şəxsi seçimləri cəmiyyət tərəfindən bir qədər çətin qəbul edilirdi. Lakin müəllif hər iki romanda bu çərçivəni qırmış, hər iki obraza müəyyən qədər "azadlıq" verməyə müvəffəq olmuşdur. Müəllif bu əsərləri yazarkən kişi və qadınların cəmiyyətdəki gender rollarını dəqiq təsvir etməyi qarşısına məqsəd qoymuşdur. Yazıçının qadına, onun cəmiyyətdəki rolu və vəziyyətinə həsr olunmuş məşhur "Cenni Herhardt" (1911) romanı da bu istiqamətdədir.Əsərin qadın qəhrəmanı gənc Cenni gələcək planları ilə bağlı ailəsini xəbərdar edərkən sərt xarakterli Herhardt dini mövqedən çıxış edərək onun bu niyyətini pisləyir, olacaqlarla barışa bilmir. Lakin, ölüm yatağında olarkən qızını "yaxşı qadın" adlandırmaqla həqiqi insan əxlaqının riyakar dini əxlaqla nə qədər böyük ziddiyyət təşkil etdiyini dərk edir, Cennidən olanlara görə üzr diləyir: "Mən indi çox şeyi başa düşürəm. İnsan gərək ömrü boyu öyrənsin. Sən mənə mehriban idin. Sən yaxşı qadınsan". [1,287 ]

Əsərdə müəllif Cenni obrazını təmənnası olmayan bir qadın obrazı kimi təsvir etmişdir. O həm övlad kimi, həm ana kimi, həm də qadın kimi mükəmməldir. Ailəsinin çətin zamanlarında özünü fəda etməkdən belə çəkinmir. Sevdiyi insanı cəmiyyətin sərt mühakiməsi qarşısında aciz qoymamaq üçün öz xoşbəxtliyini susqunluqla qurban verməyə razı olur. Romanda xoşbəxtliyə layiq olan qadın üçün ən böyük maneələrdən biri də sinfi bərabərsizlik idi. Sinfi bərabərsizliyin doğurduğu acı fəsadları biz Cenni və Lester münasibətlərində daha sıx müşahidə edirik. Drayzer pulun insan cəmiyyətində yaratdığı böyük uçurumları, insan münasibətlərindəki maneələri kəskin tənqid etmişdir. Atasından qalma mirasa sahiblənmək üçün Cennidən imtina etmək məcburiyyətində qalan Lester Letti ilə evləndikdən sonra da xoşbəxt olmur. Əldə etdiyi miras ona mənəvi zövq verə bilmir, əksinə onu həyatdan bir az da soyudur. Bu məqamda müəllif Lesteri miskin, xudpəsənd bir obraz kimi təqdim etməklə onun timsalında maddi nemətləri insanlığa, sevgiyə, hörmətə, bağlılığa qurban verən ictimai sistemə etiraz etməyə çalışırdı. Müəllif göstərməyə çalışırdı ki, bu sistemin tələbləri ilə həyatını quran heç bir cütlük xoşbəxtlik tapa bilməz.

Lester tərəfindən tərk edilən və bununla barışan Cenni onu ölüm yatağında da tərk etmir, mənəvi dəstək üçün yanında yer alır. Romanın sonunda Lester heyatında

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 10, 2024
Səh. 278-282

necə böyük bir səhv etdiyini anlasa da, artıq gec idi, heç bir şeyi düzəltmək mümkün deyildi. Teodor Drayzeri tənqidçilərin hədəfinə çevirən məqamlardan biri də məhz onun "çəhrayı Amerika romançılığı"na vurduğu bu zərbə idi. Drayzerə qədərki ədəbiyyatı baş obrazları olan qadınlar xoşbəxtliyə apara yolda ləyaqətlə, günahsız irəliləyirdilər. Əsər müəllifləri təsvir etdikləri yolu maneəsiz, təmiz və şərəfli təqdim etməyə çalışır, bununla da reallıqdan təmamilə uzaqlaşırdılar. Drayzerin qadın qəhrəmanları, onların yürüdüyü həyat yolu isə bu dövrün hadisələrini bütün reallığı ilə təqdim edərək özünəqədərki ədəbiyyatın romantik düşüncə tərzinə ağır zərbə endirməyi bacarmışdı. Bu baxımdan müəllifin "Kerri bacı" əsəri daha diqqətəlayiqdir.

Romanda hadisələr Amerikanın iki ən böyük şəhərləri olan Çikaqoda və Nyu-Yorkda baş verir. Hər iki şəhər öz dövrü üçün nə qədər inkişaf etmiş olsa da, buranın sakinləri gündəlik həyat qayğıları ilə yüklü olduqlarından insanlara, onların talelərinə laqeyddirlər. Bunu Kerri bacının ilk dəfə Çikaqoya ayaq basarkən iş aradığı hissələrdə müşahidə etmək mümkündür. Kənardan işıqlı və parıltılı görünən bu şəhərin həyatı adi insanlar üçün olduqca ağırdır. Xüsusilə qadınların dözülməz iş şəraiti, onun müqabilində aldıqları cüzi maaş, ağır işin onların səhhətində buraxdığı izlər və bunun iş təqdim edənlər tərəfindən soyuqqanlıqla qarşılanması müəllif tərəfindən təssüf hissi ilə təsvir olunmuşdur. Əsərin baş qəhrəmanı olan qadın – Karolina Miber on səkkiz yaşlı gənc qızdır. O, iş tapmaq ümidi ilə Çikaqoya bacısının yanına yola düşəndə qarşıda onu gözləyən çətinliklərdən bixəbər idi. Böyük şəhərdə heç bir dəstəyi olmadan gənc bir qadının yaşaması, işləməsi, yeni həyata başlaması çox çətin, hətta mümkünsüz idi. Eyni çətinliklər Kerrinin də qarşısına çıxır, xəyalpərəst gənc qadın üçün yeni məskunlaşdığı yerdə yaşamaq, işləmək böyük bir problemə çevrilir. Ağır fiziki işə alışmamış gənc Karolina bu problemin həllini Drue adlı komivoyajerin sevgilisi olmaqda tapır. Müəllif bu münasibətlərin ilkin mərhələsindən Drueni ciddi niyyətli bir insan kimi təqdim etmir. Drayzer Drue obrazının timsalında XIX əsrin sonları üçün xarakterik olan kişi obrazını yaratmağa çalışmışdır. Bu tip kişilər karyera qurmağa müvəffəq olur, qadınların rəğbətini qazanır, gəncliyindən və maddi imkanlarından, müasir dəbli geyim tərzindən, cəmiyyətdə qurduğu yüksək əlaqələrdən zövq almağa üstünlük verir, məsuliyyət tələb edən münasibətlərdən uzaq gəzməyə çalışırdılar. [3,119]

Əsərin əvvəlindən sonuna qədər oxucu Drue obrazını bu günü ilə yaşayan, gələcək üçün ciddi planlar qurmaqdan çəkinən bir obraz kimi tanıyır. Druedən fərqli olaraq romanın digər kişi qəhrəmanı Herstvud Kerriyə olan düşkünlüyündən özünü, ailəsini, cəmiyyətdəki mövqeyini qurban verən aciz xarakterli bir obraz kimi təsvir olunmuşdur. Kerriyə olan sevgisi, ona qarşı olan hissləri Herstvuda xoşbəxtlik gətirmir. Çünki, Kerri xarakterli qadınlar onlar üçün verilən qurbanları dərk etməyə qadir deyillər. Yüksək cəmiyyətin gözqamaşdırıcı parıltısı, oraya doğru addımlamaq iddiası onlarda yüksək insani keyfiyyətlərdən bir addım öndə dayanır. Bu

səbəbdəndir ki, əsərin sonunda özünə, şəxsiyyətinə olan hörmətini itirən Herstvud bütün yaşadıqlarına, səhvlərinə, iztirablarına son qoymaq üçün intihara əl atır.

Əsərin qadın obrazı bir şəxsin faciəsinin birbaşa olmasa da, dolayı yolla səbəbkarına çevrilir. Drayzer Kerri obrazını səhvlərindən nəticə çıxaran bir obraz kimi təqdim etməyə çalışmır. Sadəcə oxucu qarşısında bir sual qoyur. Bütün bu qurbanları verməyə dəyərdimi, yaşananlar və qazandıqları Kerriyə xoşbəxtlik gətirdimi? Bir zamanlar əyalətdən gələn adi bir qadın üçün əlşatmaz və göz qamaşdıran nə var idisə, Kerri hamısını əldə etməyi bacarmışdı. Qazandığı pulları hara xərcləməyi bilməyən, həyata, əks cinsə inamını itirən Kerriyə qazandıqları mənəvi zövq, ruhi rahatlıq, bir sözlə xoşbəxtlik gətirə bilmir.

Əsərin finalı oxucunu "Amerikan arzusu" haqqında dərindən düşünməyə vadar edir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Drayzer.T.Cenni Herhardt / T.Drayzer. – Bakı:Şərq-Qərb, –2006, –360 s.
2. Drayzer.T.Kerri bacı / T.Drayzer. –Bakı: Avrasiya Press, – 2006, –472 s.
3. Кожевникова.Н.Е. Социальные знаки в художественном пространстве романа «Сестра Керри»/ Н.Е. Кожевникова. –Вестник ЯГУ, –2002, –том 3, №3, –с.117-126

**SUMMARY**

**WOMEN'S THEME IN THEODORE DRAISER NOVELS (BASED ON "SISTER CARRIE" AND "JENNY GERHARDT")**

***Safarova U.S***

***Key words:Drayzer, novel, womens issue,American literature, XX century***

An outstanding representative of American literature Theodore Dreiser was a literary figure in the late 19th and early 20th centuries. He is the author of several novels, such as " Sister Carrie", "Jennie Gerhardt", "The Financier", "The Genius" that are noteworthy in terms of subject and content. Theodore, who was criticized for his early writings, later became a world-famous writer.

The female protagonists of his novels, Carrie and Jennie attract attention with their free thinking? Free decissions and opposition to the existing rules of society. Both female characters stood out from the female protogonists of previous literary works. In this regard, the authors novels are still read and loved by a wide range of readers.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 278-282*

# РЕЗЮМЕ

# ЖЕНСКАЯ ТЕМА В РОМАНАХ ТЕОДОРА ДРАЙЗЕРА (ПО МОТИВАМ «ДЖЕННИ ГЕРХАРД» И «СЕСТРА КЕРРИ»)

**Сафарова У.С**

*Ключевые слова:Драйзер, роман, женская тематика, Американская тематика, XX век*

*Теодор Драйзер, видный деятель Американской литературы конца девятнадцатого и начала двадцатого века, является автором нескольких замечательных по тематике и содержанию романов такие как «Сестра Керри», «Дженни Герхардт», «Гений». Теодор Драйзер которого критиковали за произведения на ранних этапах своего творчество, позже стал известен как писатель с мировым именем. Персонажи автора, такие как Сестра Керри, Дженни Герхард, привлекают внимание своим свободомыслием, свободными решениями и противостоянием существующим аспектом общества. По этой причине романы автора до сих пор востребованы широким кругом читателей.*

**Rəyçi: fil.f.d. Cabarova M.A**